**Günel Həsən qızı BAĞIROVA**
*Qərbi Kaspi Universiteti,*
*Politologiya, psixologiya və sosial iş kafedrası, magistrant*
E-mail: qehremanova_7@mail.ru

# GƏNC AİLƏLƏRDƏ SOSİAL ROLUN QAVRANILMASI PROBLEMİ

**Xülasə**

Müasir qloballaşan dünyada, informasiya texnologiyalarının artdığı bir dövrdə milli-əxlaqi dəyərlərdə, ailə məsələlərinə münasibətdə də müəyyən dəyişikliklər olmuşdur. Ümumən qiymətləndirsək, ailə mövzusu bütün dövrlərin və dövlətlərin aktual problemi hesab edilmişdir. Hər bir xalqın tarixən formalaşmış mental dəyərləri əsasında ailə modeli mövcuddur. Bu dəyərlərlə yanaşı, hər bir ailənin də özünün yazılmamış "qanunları", prinsipləri, özəllikləri vardır.

Ailə nədir? Şablon səslənsə də, qeyd etməliyik ki, ailə kiçik dövlətdir, cəmiyyətin, dövlətin mövcudluğunun, müasir sivilizasiyanın bönövrəsidir. İstənilən ailənin əsasını nikah nəticəsində yaranmış müəyyən bir cütlük, obrazlı desək, bir kişi və bir qadın arasında özünəməxsus şəkildə yaranan ittifaq təşkil edir. Ortaq mənzil, məişət, birgə yaşayış və fəaliyyət qayğıları ailənin xarakterik xüsusiyyətlərini təşkil edir. Qeyd olunduğu kimi, ailə nigah nəticəsində təşkil olunan iki nəfərin birliyi hesab olunsa da, bu gün yalnız dini nigahla kifayətlənən və ya nigahsız yaşayan ailələr də mövcuddur. Baxmayaraq ki bu, xarici ölkələr üçün daha xarakterik haldır, inteqrasiya nəticəsində Azərbaycanda da belə ailələrə meyl artmaqdadır.

**Açar sözlər:** ailə, cütlük, funksiya, ünsiyyət, valideyn, konflikt, uşaq, rollar, münasibət.

**DOI:** https://doi.org/ 10.54414/HMKB9644

**Giriş**

Ailə haqqında kiçik qrup kimi danışdıqda, onun həyatda, cəmiyyətdə, uşaqların tərbiyəsində yerinin müəyyənləşdirilməsi çox vacibdir. Uşağın bir şəxsiyyət kimi təşəkkülü və inkişafında onun böyüdüyü ailənin olduqca böyük təsiri vardır.

Ailədaxili münasibətlər bütün dövrlərdə alimlərin diqqət mərkəzində olmuş, bu münasibətlər çərçivəsində mövcud olan konfliktlərin aradan qaldırılması və ailədaxili münasibətlərin düzgün tənzimlənməsi üçün çoxlu tədqiqatlar aparılmışdır. Bu təsadüfi deyildir. Belə ki, insanların öz həyat fəaliyyətində qazandıqları uğur və uğursuzluqlar, o cümlədən cəmiyyətin düzgün inkişafı, ailədaxili münasibətlərin sağlamlığından birbaşa asılıdır. Bu fikir ailə problemi ilə məşğul olan alimlər tərəfindən birmənalı qəbul edilir və riyazi terminlə desək, "aksioma" kimi qəbul edilir.

Ailə- insanların qan qohumluğuna və ya nigaha əsaslanan birliyidir ki, burada insanların məişət ortaqlığı vardır. Onlar bir-birləri ilə münasibətdə qarşılıqlı məsuliyyət daşıyırlar. Ailənin hər bir üzvünün öz xarakter xüsusiyyətləri, öz "dünyası" vardır. Onlar bir-birləri ilə bütün ömürləri boyu ünsiyyətdə olurlar. Bu ünsiyyət forması ailədaxili münasibətlər adlanır. Ailə münasibətlərinin kökünü vəhdətdə olan ər-arvad və valideyn-uşaq (uşaqlar) arasındakı münasibətlər təşkil edir.

Ailədə sağlam mühitin olması bilavasitə ailədaxili münasibətlərin necə qurulmasından asılıdır. Onu da qeyd etmək lazımdır ki, ailədə düzgün münasibətlərin qurulması ailənin başçıları olan ər və arvadın öhdəsinə düşür, onlar, ilk növbədə, öz aralarında, sonra isə həm uşaqları ilə öz aralarında, həm də uşaqlar arasındakı münasibətlərin düzgün qurulmasını tənzimləməlidirlər. Valideynlər nəzərə almalıdırlar ki, uşaqlar arasındakı sağlam qarşılıqlı münasibətlər öz-özünə yaranmır. O, ailə tərbiyəsinin zəruri nəticəsi kimi meydana çıxır.

**Gənc ailələrdə sosial rollar**

Əgər tərəflər bir-birləri ilə "dost"durlarsa, bir-birlərinin qayğısına qalırlarsa, bir-birlərilə maraqlanırlarsa, bir-birlərindən heç nə gizlətmirlərsə, ailənin məsuliyyətini rollara uyğun

olaraq bölüşdürürlərsə, ailənin problemləri ilə maraqlanırlarsa, uşaqların düzgün böyüməsində, tərbiyəsində, təhsilində birgə çalışırlarsa ailədə hökm sürən münasibətlərin sağlam olduğunu demək olar. Lakin tərəflər ailədə öz üzərlərinə düşən məsuliyyəti yerinə yetrimirlərsə, bir-birləri ilə hesablaşmırlarsa, sirrlərini bölüşmürlərsə, istirahətlərini birlikdə təşkil etmirlərsə, ailə üzvləri bir-birlərinə qarşı laqeyddirlərsə, uşaqların problemlərinin həlli zamanı səfərbər olmurlarsa, onda nəinki normal ailədaxili münasibətlərin olduğundan danışmaq olmaz, həm də ailə üzvlərinin yalnız fiziki məkan baxımından birlikdə olduğunu demək olar.Bu isə ailənin yaşaması , uzunömürlü olması üçün kifayət deyildir. Ailənin əsas tərəfi onun üzvlərinin mənəvi həyatının vəhdət təşkil etməsində təzahür edir.

Ailə sistemində hakimiyyətin bölüşdürülməsi sərhədlər, rollar və nəzarət vasitəsilə həyata keçirilir. Sistemdə nəzarət itirsə, ailənin diqqəti dəyişir. Fokusun dəyişdirilməsi alt sistemlərin bir-birinə mənfi təsir göstərməsinə səbəb olur. Nəzarət mexanizmləri sistemi dəyərlərdən başlayır. İstəklər, motivlər, maraqlar, münasibətlər, qabiliyyətlər, məqsədlər kimi davam edir. Daha zəif ailə üzvü adətən idarə olunur. Bununla belə, bəzi hallarda nəzarət də ikitərəfli olur. Ailə rolları üçün nəzarət çox vacibdir.

Sistemdə nəzarətin ən vacib hissəsi əks əlaqədir. Müsbət və ya mənfi rəy də münasibətləri tarazlaşdırmağa kömək edir. Uşağın ailəyə verdiyi rəy, ailənin uşağa öyrətmə tərzi qarşısında vacibdir. Uşaqların düşüncələri sağlam balansı bərpa etməyə kömək edir. Mənfi rəy verilərsə, əvvəlki hərəkət növbəti hərəkətə təsir edəcəkdir. Ailənin sağlam tarazlığı yenidən pozulur. Ailədə mənfi rəy çox olarsa, bu, ailə sistemlərində çaşqınlığa səbəb olar. Müsbət rəy isə ailədəki tarazlığın daha keyfiyyətli saxlanmasına və münasibətlərin möhkəmlənməsinə kömək edir.

Ailədə rolların bölüşdürülməsi haqqında danışdıqda vurğulamaq lazımdır ki, ailə daxilində rolların bölüşdürülməsi bərabər olmalıdır. Bu bərabərlik tarazlığı təmin edir. Ailə öz sistemi daxilində müəyyən rolların bölüşdürülməsini həyata keçirir. Rolların bu şəkildə bölüşdürülməsi həm də ailə üzvlərinin ehtiyaclarını ödəyir. Bəzi hallarda ailə üzvlərində avtomatik davranış nümunələri müşahidə olunur. Bu rol bölgüsündə ailənin maddi ehtiyacları və maddi qazancları, sağlamlıq ehtiyacları, ailə daxilində ictimai fəaliyyətlər, ailə daxilində səlahiyyətlərin bölüşdürülməsi və ya ailə daxilində sevgi və diqqət ehtiyaclarının qarşılanması kimi əsas vəziyyətlər ailənin formalaşmasında iştirak edir. Ailədə güc bir adamda cəmləşərsə, bu, problem yaradır. Güc və güc sahibi ailədəki tarazlığı öz əlində saxlayır. Bu vəziyyət ailədəki tarazlığın dəyişməsinə səbəb olur. Beləliklə, ailə daxilində rollar bərabər paylanır.

Bir çox ailələr qarşıya çıxan çətinlikləri səylə aradan qaldırırlar, bəzi ailələrdə isə çətinliklər problemə çevrilir, düzgün qiymətləndirilmir. Ailə sadə və mürəkkəb olur. Mürəkkəb ailə üç və ya daha çox nəsildən – baba-nənə, ata-ana və uşaqlardan ibarətdir. Vaxtilə mürəkkəb ailə daha geniş yayılmışdır. Belə ailələr patriarxal ailə də adlandırılır. Onun məziyyətləri təkcə ailədə üç və daha çox nəslin yaşaması ilə deyil, həm də uşaqların sayı ilə bağlı olur.

Qeyd olunmalıdır ki, boşanma hallarının dörddə üç hissəsi ər və ya arvadın ailə həyatına mənəvi və psixoloji cəhətdən kifayət qədər hazır olmaması ilə bağlıdır. Gənc ailələrin nigahının davamlılığı məhz ailə həyatına hazırlıqdan keçir. Sosioloqlar ailələri boşanmaya səbəb olan münasibətlər, uşaqlara olan təsiri baxımından təhlil edərkən uğurlu və uğursuz ailə terminlərindən istifadə edirlər. Uğurlu ailələrdən fərqli olaraq, uğursuz ailələrdə ərlə arvad ailə həyatında meydana çıxan problemlərə eyni baxımdan yanaşmır, bir birlərinin hisslərini başa düşmürlər.

Yeni qurulmuş ailə çox vaxt maddi çətinliklərlə üzləşir. Təbii ki, bu çətinliklər ailədə konfliktli situasiyalar yarada bilər. Hər bir ailə özünəməxsus dözüm və səbr nümayiş etdirməli, çalışmalıdır ki, bu, problem səviyyəsinə qalxmasın. Gənc cütlük bir birinə həssas olmalı və qayğı göstərməlidir. Birinin vəziyyəti yaxşı olmadıqda səbəbini öyrənməli və aradan qaldırmağa çalışmalıdır. Gənc ailələr əksər hallarda valideynlərlə bir yerdə yaşayır. Bu isə istər istəməz hər iki tərəf üçün müəyyən çətinliklər yaradır. Oğul ailədaxili münasibətlərin təmin olunmasında xüsusi rol oynamalıdır. Konfliktlər olduqda

bunu aradan qaldırmaq üçün çalışmaq lazımdır. Bu isə əsasən gənc cütlükdə qadının üzərinə düşür. Konfliktləri aradan qaldırmağın yolları olduqca çoxdur. Bu sahədə maariflənmə işlərinin aparılması və psixoloji dəstəyə müraciət olunması da öz müsbət təsirini göstərə bilər.

Ailənin cəmiyyət daxilində hər bir fərdin inkişafı və insanlığın qorunması üçün əsas rol oynayan funksiyaları vardır. Bundan əlavə, bir insanın sosial qarşılıqlı əlaqəsinin ilk əlaqəsi olduğundan, bir fərdin digər sosial dairələrə inteqrasiyasının necə olacağını böyük ölçüdə müəyyənləşdirir.

Funksiyalar ailənin hər bir üzvünün fərdi olaraq olmasa da, bir qrup həyat dinamikası olduğu üçün qarşılıqlı asılılıq münasibətlərində ehtiyaclarını ödəməyə yönəldilmişdir. Ailə ilə əlaqəli fəaliyyətlər uşaqlarda ilk şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirən əsas və ilkin məlumatları ötürür.

Psixoloji və sosioloji ədəbiyyatlarda ailə institutunun müxtəlif funksiyaları göstərilmişdir:

1.Cinsi funksiya. Ailə əsas sosial institutdur ki, onun vasitəsilə cəmiyyətdə insanların cinsi tələbatlarının ödənilməsi tənzimlənir. Bununla bərabər insanların cinsi tələbatlarının ödənilməsinin alternativ yolları da vardır. Müasir dövrdə bir çox cəmiyyətlərdə bu, normanın pozulması kimi qəbul olunur, bəzilərində isə ailə qurmadan öncə kişi və qadın arasında cinsi münasibətlərin olması normal qəbul olunur və nigaha hazırlıq hesab olunur.

2.Reproduktiv funksiya. Bu funksiya ailənin nəsilartırma funksiysıdır.Hər bir ailə övladlarının psixi və fiziki cəhətdən sağlam böyüməsi, təhsil alması, sosiallaşması və gələcəkdə bir şəxsiyyət kimi formalaşmasını vacib hesab edir. Ailə institutunun bu funksiyası cəmiyyətdə demoqrafik göstəricilərin dəyişməsinə (artma yaxud azalma) nəzarət edir. Ona görə də ailədən, nigahdan kənar uşaqların doğulması cəmiyyətdə arzuolunan hal kimi hesab olunmur.

3.Sosiallaşma funksiyası. Sosiallaşma dedikdə, fərdin yaşadığı sosial mühitə adaptasiyası, bu cəmiyyətin normalarını, dəyərlərini, davranış modellərini mənimsəməsi başa düşülür. Fərdin ilkin sosiallaşması və şəxsiyyət kimi formalaşmasının əsası məhz ailədə qoyulur. Ailə uşaq üçün ilkin qrupdur, sonralar o, digər qruplara daxil olsa da erkən uşaqlıqda qazandığı vərdişlərini və ilkin davranış formalarını saxlayır. Ailədə sosiallaşma zamanı uşaq özündən yaşca böyük ailə üzvləinin (ata, ana, nənə, baba, qardaş, bacı və b.) davranışlarını mənimsəyir və təkrarlayır. Beləliklə, cəmiyyətin daha yüksək mədəniyyətə sahib olması ilk növbədə ailədən yüksək mədəniyyət tələb edir.

4.Emosional məmnunluq funksiyası. Bir qrup psixiatr və psixoloqlar belə hesab edirlər ki, cəmiyyətdə insanlar arasında emosional və davranış pozuntularının (cinayət hadisələri, hüquq pozuntuları və s. bu kimi hallar),eləcə də psixosomatik xəstəliklərin yaranmasının əsas səbəbi məhz ailədə sevgi çatışmazlığı, emosinal tələbatların ödənilməməsi nəticəsində yaranır. Ona görə də bu ehtiyacların ödənilməsi vacibdir.

5.Müdafiə funksiyası. Bütün cəmiyyətlərdə ailə institutu öz üzvlərinin fiziki, iqtisadi və psixoloji müdafisəsini müxtəlif səviyyədə həyata keçirir.

6.İqtisadi funksiya. Ailə üzvləri arasında sıx iqtisadi əlaqələrin – ümumi büdcənin olması, onların bir-birinə dəstək olması vacibdir. Ailə institutunun iqtisadi funksiyası ailədə məhz bu əlaqələri tənzimləyir.

Ailənin psixoloji iqlimini ən ümumi şəkildə nəzərdən keçirsək, onda bu xüsusiyyətləri qeyd edə bilərik: hər bir sosial qrupda olduğu kimi, ailədə psixoloji iqlim insanların həyat fəaliyyətinin mühüm bir sahəsini təşkil edir, ailə üzvlərinin gümrahlığı və fəallığı bilavasitə ondan asılıdır. Doğru deyirlər ki, bədbinlik – passivlik, nikbinlik – iradə deməkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyə məsələləri. Bakı: 1986, 236 s.
2. Həsənov A., Ağayev Ə.Pedaqogika. Bakı : Nasir, 2007, 496 s.
3. Quliyev S. Ailə pedaqogikasının mühüm problemləri. Bakı: 2005, 416 s.
4. Talıbov Y., Talıbov E., Priverdiyeva E., Cabbarov B. Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi. Bakı, 2004, 174 s
5. Афанфсьева П.М. Семья. М, 1988, 192с.
6. l.Бадалев А.А. Семья в психологической консультации. М, 184 с.
7. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı, Bilik:2012. 239s.

**Гюнель Гасан БАГИРОВА**
*Западно-Каспийский Университет,*
E-mail: qehremanova_7@mail.ru

## ПРОБЛЕМА ВОСПРИЯТИЯ СОЦИАЛЬНОЙ РОЛИ В МОЛОДЫХ СЕМЬЯХ

**Резюме**

В современном глобализированном мире, в эпоху роста информационных технологий, произошли определенные изменения в национальных нравственных ценностях и отношении к семейным вопросам. Вообще, семейный вопрос считался актуальной проблемой всех времен и государств. У каждого народа есть модель семьи, основанная на исторически сложившихся ментальных ценностях. Кроме этих ценностей, в каждой семье есть свои неписаные «законы», принципы, особенности.

Что такое семья? Хоть это и звучит шаблонно, но мы должны отметить, что семья – это маленькое государство, основа общества, существования государства и современной цивилизации. Основой любой семьи является определенная пара, образованная в результате брака, образно говоря, своеобразно созданного союза между мужчиной и женщиной. Общие жилищные, хозяйственные, совместные бытовые и хозяйственные заботы составляют характерные признаки семьи. Как было сказано, хотя семьей считается союз двух людей, образованный в результате брака, сегодня также существуют семьи, которые довольствуются только религиозным браком или живут без брака. Хотя это больше характерно для зарубежных стран, в результате интеграции тенденция к таким семьям возрастает и в Азербайджане.

**Ключевые слова:** семья, пара, функция, общение, родитель, конфликт, ребенок, роли, отношения.

**Gunel Hasan BAGHIROVA**
*Western Caspian University, Department of Political Science,*
Email: qehremanova_7@mail.ru

## THE PROBLEM OF SOCIAL ROLE PERCEPTION IN YOUNG FAMILIES

**Summary**

In the modern globalized world, in an era of increasing information technologies, there have been certain changes in national moral values and attitudes towards family issues. Generally speaking, the family issue has been considered an actual problem of all times and states. Each nation has a family model based on historically formed mental values. In addition to these values, each family has its own unwritten "laws", principles, and peculiarities.

What is a family? Although it sounds like a template, we must note that the family is a small state, the foundation of society, the existence of the state, and modern civilization. The basis of any family is a certain couple formed as a result of marriage, figuratively speaking, a uniquely created union between a man and a woman. Common housing, household, joint living and activity concerns constitute the characteristic features of the family. As mentioned, although the family is considered a union of two people formed as a result of marriage, today there are also families that are satisfied with only religious marriage or live without marriage. Although this is more typical for foreign countries, as a result of integration, the tendency towards such families is also increasing in Azerbaijan.

**Key words:** family, couple, function, communication, parent, conflict, child, roles, relationship.

**Daxil olub:** 02.01.2023